## Süleyman Abdulla

### Nədənsə

Göylərin altında, yerin üstündə,
Cəng atıb evlərin damı nədənsə.
Əvvəl bal dadırdı meri-meyvəsi,
İndi kəpək dadır tamı nədənsə.

Gör, necə yandırır günəş dağları,
Yaman tez saraldır rüzgar bağları.
Mey kimi süzərdik buz bulaqları,
Zanbaqdan düzəlmir camı nədənsə.

Dəyişib zəmanə, insan dərdi çək,
Çoxları yolçunu qoyur yolda tək.
Adama bir kimsə eyləməz kömək,
Nəsihət eyləyər hamı nədənsə.

Külünü gözünə tut, sər xəfifcə,
Keçər yan-yörənə bir şər xəfifcə.
Biri pərvanəyə gülər xəfifcə,
Ağladar sozalan şamı nədənsə.

Çətin anlaşılar həyatın dili,
Düşər könlümüzə qəmin ən zili.
Ehtiyac içində ölər aqili,
Yaşar kef içində xamı nədənsə.

Elə əyyamdı ki, nə öl, nə yaşa,
Kimsə irad tutmaz hər ağlıçaşa.
Yaltağı, satqını keçər dörbaşa,
Qalmaz igidlərin namı nədənsə.